# CƏBRAYIL
# YADDAŞLARDA

"ADİLOĞLU" nəşriyyatı
BAKI 2001

Toplu Cəbrayıl rayon İcra Hakimiyyətinin Başçısı
**Mahmud Quliyevin** təşəbbüsü ilə hazırlanmışdır.
**“CƏBRAYIL YADDAŞLARDA...”**
**Bakı , “ADİLOĞLU” nəşriyyatı – 2001, 39 səh**

Kitabça Cəbrayıl rayon İcra Hakimiyyəti
başçısının sosial-iqtisadi məsələlər üzrə müavini
**Mərkəz Paşayevin** rəhbərliyi ilə hazırlanmışdır.
Kitabın çap olunmasında göstərdiyi qayğıkeşliyə görə
**Aslan Şahverdiyevə** minnətdarlığımızı bildiririk.

Q 4702050600
121-2001

**“ADİLOĞLU” nəşriyyatı**

**Hörmətli oxucu!**

Faşist xislətli milli düşmənlərimiz – erməni qəsbkarları tərəfindən başımıza gətirilən fəlakətdən, torpaqlarımızın işğalından 9 il keçir. 9 ildir dağdan ağır ellərimizi öz doğma ata-baba torpaqlarından pərən-pərən salıb yurdsuz-yuvasız didərginə çevrilən dəhşətli faciənin özü boyda el-obaya gətirdiyi dərdin ağırlığı altında qovrula-qovrula qəlbimiz torpaq həsrətiylə döyünür. Vətəndə vətənsiz qalmaq dərdi nə qədər ağır olsa da, dözür, isti ağuşunda böyüyüb ərsəyə çatdığımız, ulularımızın bizə əmanət qoyub getdikləri yurd yerlərimizin vüsalına qovuşmaq arzusu ilə yaşayırıq. Mənəviyyatımıza sağalmaz yara vuran, tarixdə analoqu olmayan bu müsibəti xatırlamaq qəlbimizi titrətsə də, tariximizə qara ləkə salan o günləri yada salmaq, milli düşüncələrimizi gələcək nəsillərə tanıtmaq çox vacibdir.

Zəngin sərvətə malik Azərbaycan zəhərli dişlərin qıcışması, imperiyapərəst qüvvələrin onu yenidən kölə vəziyyətinə salmaq istəyini, milli düşmənlərimizin insanlıqla bir araya sığmayan iyrənc əməllərini, uşaqları, qadınları, ağbirçək və ağsaqqalları qəddarcasına məhv etmələrini, bütöv ellərimizin, yandırılmış evlərimizin, qədim tarixə malik maddi və mədəniyyət abidələrimizin harayından söhbət açan, zahirən quru görünən rəqəmlərdən ibarət bu toplumun hazırlanması məhz zərurətdən irəli gəldi.

Hörmətli oxucu! Bu gün doğma Cəbrayılımızdan didərgin düşərək, məcburi köçkünlük həyatı keçirən çadır düşərgələrində, fin evlərində, müxtəlif təyinatlı obyektlərdə məskunlaşan məcburi köçkünlərimiz bir amalla, bir arzu ilə - ata-baba ocaqlarımıza, şəhidlərimizin yaralı, narahat ruhları dolanan o müqəddəs yerlərə qayıdacağımız günün vüsal həsrəti ilə yaşayırlar. Məhz siyasətçi, türk dünyasının əvəzsiz lideri möhtərəm prezidentimiz cənab Heydər Əliyevin uzaqgörənliklə apardığı daxili və xarici siyasət ona inam yaradır ki, Ermənistan-Azərbaycan münaqişəsi, qondarma Dağlıq Qarabağ problemi və işğal olunmuş bütün ərazilərimiz tezliklə qaytarılacaq, bütün qaçqın və məcburi köçkünlər öz tarixi dədə-baba yurdlarının yenidən daimi sakinləri və quruculari olacaqlar.

O gün uzaqda deyil.

**Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı**
**M.N.Quliyev**

## Cəbrayıl

*(Qısa tarixi məlumat)*

Cəbrayıl rayonu Kiçik Qafqaz dağlarının cənub-şərqində - Araz çayının sol sahilində - cənub tərəfdən İran İslam Respublikası, cənub-qərbdən Zəngilan, qərbdən Qubadlı, şimaldan Xocavənd, şərqdən isə Füzuli rayonları ilə həmsərhəddir.

Cəbrayıl rayonunun adı rayonun mərkəzi olan Cəbrayıl kəndinin adından götürülmüşdür. Cəbrayıl kəndinin əsasını qoymuş Cəbrayıl ata VIII əsrdə yaşamış Sultan Əhməd adlı bir hökmdarın yaxın adamlarından biri olmuş və Ziyarət dağından Araz çayına qədər ərazilər Cəbrayıl ataya və onun övladlarına məxsus olub. Bu müqəddəs şəxs hələ öz sağlığında böyük hörmət sahibi olub, vəfat edərkən öz mülkünün axar-baxarlı bir yerində - Alpaşa dağının üstündə dəfn edilmişdir. Cəbrayıl kəndinin şimalında "Cəbrayıl ata" adı ilə məşhur olan bu məqbərənin uzunluğu 4,5 metr, eni 2,4 metr, hündürlüyü 1,8 metrdir ki, oradakı məzar və qədim yaşayış yerlərinin izləri indiyə qədər qalır.

Cəbrayıl atanın Mirzəcan, Yarəhməd, Şahvələd, Bünyad, Qurban, Xubyar, Hasan və b. adlı oğlanları olduğu mənbələrdə göstərilir. Sonralar onun adından Cəbrayıllı tayfası formalaşmışdır. Orta əsrlərdən bəhs edən mənbələrdə məşhur Şahsevən, Cavanşir, Əfşar və b. tayfalarla yanaşı, Cəbrayıllı tayfasının da adı çəkilir.

Rus imperiyası işğaldan sonra vergi yığmaq məqsədilə siyahı tərtib edərkən (1823-cü il) Cəbrayıllı tayfasında 17 tirə, 443 ev, 2200 nəfərdən ibarət əhalini qeydə almışdır. XIX əsrin ikinci yarısında və XX əsrin 50-ci illərində Cəbrayıl kəndinə Qıraxdın da deyilmişdir. Bu da 1831-ci ildə Daşkəsən kəndində "Karantin" (qırx gün deməkdir) idarəsinin yaranması və 1848-ci ildə həmin idarənin Cəbrayıl kəndinə köçməsi ilə əlaqədardır. Yerli əhalinin dili dönmədiyindən "Qraxdın" kimi tələffüz etmişlər.

Cəbrayıl ərazisi Midiyi (e.ə. VII-IV əsrlər), Əhmənilər imperiyasının (e.ə. IV-III əsrlər), Albaniya (e.ə. IV-III əsrlər) dövlətlərinin tərkibində olmuşdur.

Albanların dövründə Cəbrayıl ərazisi Pazkank, Əhristan və Dizak adlanan mahalın tərkibində olub. 971-1086-cı illərdə Cəbrayıl şəddadilərin, 1250-ci illərdən monqolların, 1387-ci ildən Teymurilərin, 1412-ci ildən Qaraqoyunluların, 1478-ci ildən Ağqoyunluların və nəhayət, 1501-ci ildən Səfəvilərin tərkibində olmuşdur.

1841-ci ildə Cəbrayıl ərazisi Mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinin, 1846-cı ildə isə Şuşa qəzasının tabeliyinə verilmişdir. 1873-cü ildə Cəbrayıl və ona qonşu olan ərazilər Şuşa qəzasının tabeliyindən çıxarılıb Yelizavetpol (Gəncə) quberniyasının tərkibində müstəqil Cəbrayıl qəzası təşkil edildi.

Bu dövrdə Cəbrayıl qəzasının ərazisi 66,3 min kv.km, əhalisi 66360 nəfər olmuşdur. Qəza indiki Füzuli, Xocavənd, Qubadlı, Zəngilan rayonlarının ərazilərini əhatə edirdi.

Qəzanı qubernator tərəfindən təyin edilən rəis idarə edirdi, əhalinin 42,4%-i yarımköçəri həyat sürürdü. Cəbrayılda baramaçılıq, xalçaçılıq (ayrıca Cəbrayıl xalça məktəbi var), xüsusi "Qasımuşağı", "Kürd", "Qaraqoyunlu", "Bəhmənli" adlı xovlu, zili, çuval, çul, məfrəc, heybə, xurcun, vərni, asmalıq, palaz, kilim, cecim kimi xovsuz xalçaları ilə məşhur olmuşdur. Daşkəsən kəndində uzun illər fəaliyyət göstərən ipək emalı fabriki inqilabdan sonra Xankəndinə köçürülmüşdür. Qəzada 5 ipək fabriki olub.

XVIII əsrin axırlarında Cəbrayılda həftəbazarı yaranmışdı. 1840-cı ildən bazarlarda rus pulları işləməyə başlayır. 1876-cı ildə, avqust ayının 5-də Cəbrayılda bir sinifli rus məktəbi açıldı. Və nəhayət, 1930-cu il avqustun 8-də mərkəzi Cəbrayıl kəndi olmaqla, Cəbrayıl rayonu təşkil edildi. Rayonun ərazisi indiki hüdudları daxilində sahəsi 1050 kv.km, əhalisi 24300 nəfər olmuşdur.

Cəbrayıl rayonunun ərazisi maddi və mədəni abidələrlə zəngindir. Bunlardan Dağ-Tumas kəndi yaxınlığında yerləşən "Divlər Sarayı" mağarası, Qalacıq kəndindəki "Məscid Təpəsi", "Canqulu" və "Qumtəpə" kurqanları, Tatar kəndi yaxınlığındakı Qızılqaya dağındakı Sigeon tikintisi, Şıxlar kəndi yaxınlığında "Şəhərcik qalıqlar", "Qışlaq yerləri", Diri dağındakı Mazannənə, Mərmər nənə məqbərələri kimi arxeoloji, Doğtumas kəndindəki "Başıkəsik Gümbəz", Sirik kəndindəki "Qala", Diri dağındakı "Qız qalası", Xudafərin körpüləri, Çələbilər kəndindəki Məscid kompleksi, rayon mərkəzindəki "Sultan Məcid hamamı", Şıxlar kəndindəki "Dairəvi Türbə", Xubyarlı kəndindəki "Dairəvi" 8 guşəli türbələr və məqbərələr, türk qəbiristanlığındakı türbə və məqbərələrin hər biri nəsildən-nəsilə ötürülmüş canlı tarixdir.

Rayonun ərazisində çoxlu yazılı abidələr vardır ki, bunlardan da Ağoğlandakı Orxan yazılı abidəsi xüsusilə qiymətlidir.

Rayonun ərazisi sement istehsalı üçün qiymətli xammal ilə, mərmər və başqa tikinti materialları ehtiyatları, dəmir filizi, hətta neft yataqlarının olduğu da məlumdur. Əhali işğaldan əvvəl əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul idi. Son illər 60 min tondan yuxarı üzüm istehsal olunurdu. Rayonda tikiş, xalça, cihazqayırma sexləri və müxtəlif sənaye obyektləri fəaliyyət göstərirdi.

Cəbrayıl aşıqların ulu babası sayılan Aşıq Qurbaninin, Aşıq Pərinin, Muğrum Kərimin, Aşıq Humayın, Aşıq Abdullanın və b. bu kimi el sənətkarlarının vətənidir.

Elm, mədəniyyət bu torpaqda həmişə inkişaf edib. İşğaldan əvvəl rayonda 510 çarpayılıq xəstəxana birləşmələri, 72 məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana və s. fəaliyyət göstərirdi. Rayon tarix-diyarşünaslıq muzeyində 20 mindən yuxarı eksponat vardı. Rayonun tibb müəssisələrində 92 həkim, 432 orta ixtisaslı tibb işçisi, 301 texniki işçi çalışırdı. Yetişməkdə olan nəslin təlim-tərbiyəsi ilə 1600 nəfərdən çox müəllim məşğul olurdu.

Cəbrayıl rayonu güclü kadr potensialı, yüksək intellektə malik ziyalıları, görkəmli alimləri ilə respublikamızda özünə ad-san qazanmışdır. Uzun illər Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsində işləmiş Teymr Quliyev, Azərbaycan KP MK-nın katibi vəzifəsində işləmiş Həsən Həsənov, uzun illər Azərbaycan Respublikasının maarif naziri olmuş, SSRİ Pedaqoji Elmlər Akademiyasının akademiki Mehdi Mehdizadə, rəhbər partiya və sovet orqanlarında mühüm vəzifələrdə çalışmış Yəhya Ağakişiyev, Svetlana Qasımova Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti olmuş akademik Əşrəf Hüseynov, keçmiş SSRİ hökumətinin Türkiyə səfirliyinin əməkdaşı olmuş Qaryağdı Həsənov və başqaları bu torpağın yetişdirmələridir.

Əməyə bağlılıq, halal zəhmət cəbrayıllıların həyat tərzi olmuşdur. Sosialist Əməyi Qəhrəmanları Bəyaz Həsənova, Şahnaz Əhmədova, Məhəmməd Əhmədov, Köçəri Babayev, Yusif Fərzəliyev, Qaçay Səfərov, Sərdar İmrəliyev və b. əmək qəhrəmanlarının adları, habelə 1941-1945-ci illər Böyük Vətən müharibəsində Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülən 19 yaşlı Cəmil Əhmədovun adları təkcə Cəbrayılda deyil, onun hüdudlarından çox-çox kənarlarda məşhurdur.

Hal-hazırda Azərbaycan Respublikası Baş Nazirinin müavini, Dövlət Qaçqınkomun sədri Əli Həsənov, Milli Bankın prezidenti vəzifəsində işləyən Elman Rüstəmov da Cəbrayıl rayonunun yetişdirmələridir.

**Ermənistan Silahlı Qüvvələri tərəfindən Cəbrayıl rayonu işğal olunmuşdur: 23 avqust 1993-cü il**

1.Ərazisi – 1050 kv.km
2.Əhalisi (23.08.93) – 52604 nəfər
3.Əhalisinin tərkibi:
kişilər – 25674 nəfər
qadınlar – 26930 nəfər
4.Ümumtəhsil məktəbləri – 72
5.Peşə məktəbi – 1
6.Xəstəxanalar – 8
7.Tarixi abidələr:
məscidlər – 5
abidələr – 127
8.Muzeylər (filialla) – 2
9.Mədəniyyət ocaqları –149
10.Şəhər – 1
11.Kəndlər – 90

**Ermənistan Silahlı Qüvvələri tərəfindən Cəbrayıl rayonunun işğal olunmuş yaşayış məntəqələri**

Şəhər - 1 əd.
Kəndlər və qəsəbə - 90 əd.
**o cümlədən:**
1.Cəbrayıl şəhəri
2.Xubyarlı kəndi
3.Xudaverdili kəndi
4.İmambağı kəndi
5.Qurbantəpə kəndi
6.Şahvələdli kəndi
7.Yarəhmədli kəndi
8.Balyand kəndi
9.Doşulu kəndi
10.Qaracallı kəndi
11.Böyük Mərcanlı kəndi
12.Yuxarı Mərcanlı kəndi
13.Cocuq Mərcanlı kəndi
14.Çərəkən kəndi
15.Əfəndilər kəndi
16.Papı kəndi
17.Dağ Tumas kəndi
18.Çələbilər kəndi
19.Qaraağac kəndi
20.Sofulu kəndi
21.Hacılı kəndi
22.Hüseynalılar kəndi
23.Kavdar kəndi
24.Mirək kəndi
25.Tulus kəndi
26.Hovuslu kəndi
27.İsaqlı kəndi
28.Qalacaq kəndi
29.Horovlu kəndi
30.Çapand kəndi
31.Safarşa kəndi
32.Xələfli kəndi
33.Tatar kəndi
34.Kürdlər kəndi
35.Nüsüs kəndi

36.Qərər kəndi
37.Karxulu kəndi
38.Aşağı Maralyan kəndi
39.Cəfərabad kəndi
40.Mahmudlu kəndi
41.Yuxarı Maralyan kəndi
42.Qazanzəmi kəndi
43.Çullu kəndi
44.Dağmaşanlı kəndi
45.Xanağabulaq kəndi
46.Söyüdlü kəndi
47.Qumlad kəndi
48.Dərzili kəndi
49.Məstəlibəyli kəndi
50.Stansı Xələfli kəndi
51.Stansı Xudafərin kəndi
52.Stansı Qumlaq kəndi
53.Quycaq kəndi
54.Nüzgar kəndi
55.Şəybəy kəndi
56.Maşanlı kəndi
57.Alıkeyxalı kəndi
58.Hasanlı kəndi
59.Mehdili kəndi
60.Çaxırlı kəndi
61.Minbaşılı kəndi
62.Ağtəpə kəndi
63.Sədi kəndi
64.Daş Veysəlli kəndi
65.Sarıcallı kəndi
66.Əmirvarlı kəndi
67.Məzrə kəndi
68.Yuxarı Məzrə kəndi
69.Sirik kəndi
70.Aşağı Sirik kəndi
71.Şıxlar kəndi
72.Molla Həsənli kəndi
73.Əsgərxanlı kəndi
74.Soltanlı kəndi
75.Yanarxac kəndi
76.Süleymanlı kəndi

77.Daşkəsən kəndi
78.Qışlaq kəndi
79.Şahvəlli kəndi
80.Göyərçin Veysəlli kəndi
81.Hacı İsaqlı kəndi
82.Qoşabulaq kəndi
83.Qovşudlu kəndi
84.Niyazqullar kəndi
85.Tinli kəndi
86.Şükürbəyli kəndi
87.Dəjəl kəndi
88.Fuğanlı kəndi
89.Hasanqaydı kəndi
90.Şıxalıağalı kəndi
91.Stansı Mahmudlu kəndi

**Cəbrayıl rayonu məcburi köçkünlərinin tərkibi**

*(01.11.2001-ci il tarixinə olan məlumat)*

1. Ümumi sayı – 57447

o cümlədən:

-kişilər - 28158

-qadınlar - 29289

2. 18 yaşa qədər məcburi köçkün məktəbyaşıd uşaqların sayı – 11845

o cümlədən:

-rayonun ümumtəhsil məktəblərində təhsil alan məktəbyaşlı uşaqların sayı - 7568

Əmək qabiliyyətli əhalinin sayı - 30272

İşləməyənlərin sayı -19028

Uşaqlıqdan əlil olan uşaqların sayı - 274

Hər iki valideynini itirmiş uşaqlar - 10

7.Şəhid uşaqlarının sayı - 270

8.Qarabağ müharibəsində şəhid olan uşaqların sayı -10

9.Hər iki valideyni ilə girov düşən uşaqların sayı - 3

10.Himayəyə və qəyyumluğa götürülmüş uşaqların sayı – 22

## Əhalinin milli tərkibi

1.Azərbaycanlı - 57421
2.Rus - 16
3.Tatar - 5
4.Belarus - 1
5.Moldovan - 1
6.Tabasaran - 1
7.Alman - 1
8.Qaqauz - 1

## Respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı baş vermiş itkilər

1.Şəhid ailələri -351
2.Döyüşdə həlak olan hərbi qulluqçular - 180
3.Atəşkəs dövründə həlak olan hərbi qulluqçular - 6
4.Döyüş ərazisində həlak olan polis işçiləri - 14
5.Döyüş ərazisində həlak olan mülki şəxslər - 60
6.Cəmi əsir və itkin düşənlər
o cümlədən:
mülki şəxslər - 57
hərbçilər - 34
7.Qarabağ müharibəsi əlilləri
o cümlədən:
hərbçi Qarabağ əlilləri - 152
Qarabağ əlili mülki şəxslər - 25
8.Əsirlikdən qayıdanların sayı - 7
9.Onlardan sonradan rəhmətə gedənlər - 2

## Torpaqlarımızın bütövlüyü uğrunda aparılan mübarizədə ən yüksək ada - "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülən cəbrayıllılar

1. Aslanov Şikar Davud oğlu - Süleymanlı kəndi (ölümündən sonra)
2. Məmmədov Kazım Ərşad oğlu - B.Nərcanlı kəndi (ölümündən sonra)
3. Quliyev Mətləb Kamran oğlu - Süleymanlı kəndi (Ölümündən sonra)
4. Hüseynov Vüqar Tofiq oğlu - Daşkəsən kəndi (ölümündən sonra)
5. Quliyev Vahid Həbibulla oğlu - Niyazqulu kəndi
6. Əkbərov Akif Abbas oğlu - Cəbrayıllı (Beyləqanda yaşayan)



Sirik qalası



Divlər sarayı (Dağtumas kəndi)



Şəhərə giriş



Cəbrayıl - 1906-cı il



Dostluq bulağı





Sovet İttifaqı Qəhrəmanı
Cəmil Əhmədov

Çinar kəhrizinin ümumi
görünüşü



Şəhər stadionu




Qədim «Çinar pavilyonu»



On bir aşırımlı «Xudafərin» körpüçü



On beş aşırımlı «Xudafərin» körpüçü



Çələbilə kəndində məscid (XVI əsr)



Qədim türk qəbiristanlığı (XIV əsr). Xubyarlı kəndi



Şəhərdən bir görünüş



Hacı Qaramanın məzarı - Pir. (XIV-XV əsr).

**Ermənistan Silahlı Qüvvələrinin təcavüzü nəticəsində Cəbrayıl rayonuna dəymiş ziyan barədə təxmini məlumat**

(man. ABŞ dolları ilə)

| № | **Dağıdılmış yaşayış məntəqələri, obyektlər, zəbt olunmuş əkin və meşə sahələri** | **Sayı (həcmi, ölçüsü)** | **Dəymiş ziyanın həcmi (ABŞ $ ilə)** | **Qeyd** |
|---|---|---|---|---|
| **1.** | **2** | **3** | **4** | **5** |
| 1. | Şəhər | 1 ədəd (7,4 min nəfər) | - | - |
| 2. | Kəndlər və qəsəbə | 90 ədəd (44,4 min nəfər) | - | - |
| 3. | Yaşayış evləri | 13000 ədəd/1100 min kv.m | 220,0 | - |
| 4. | İctimai binalar | | 161,3 | |
| 5. | Təhsil müəssisələri (orta məktəb, texnikum,TPM, uşaq bağçaları, musiqi məktəbləri, ali məktəblər və s.) | 91ədəd/14500 şagird yeri | 90,0 | |
| 6. | Səhiyyə obyektləri | 77 ədəd/510 çarpayı | 60,0 | |
| 7. | Mədəniyyət obyektləri | 149 ədəd | 75,3 | |
| 8. | Sənaye obyektləri | 8 ədəd | 68,4 | |
| 9. | Kənd təsərrüfatı obyektləri | 44 ədəd | 151,0 | |
| 10 | Tarixi-dini abidələr | 134 ədəd | 12,0 | |
| 11 | Avtomobil yolları (respublika əhəmiy.) | 30 km. | 20,0 | |
| 12 | Körpülər | 56 ədəd | 4,0 | |
| 13 | Su kəmərləri (artezan quyuları) | 60 km/142ədəd | 19,0 | |

| | | | | |
|---|---|---|---|---|
| 14 | Elektrik xətləri (elektrik avadanlıqları) | 281 km/1460 ədəd/61870kv | 18,0 | |
| 15 | Meşə sahələri | 4480 ha | 15,1 | |
| 16 | Əkin və otlaq sahələri | 58568 ha | 15,0 | |
| 17 | Fərdi əmlak (mənzil-məişət əşyaları) | | 171,9 | |
| 18 | Nəqliyyat vasitələri, maşın-mexanizmlər, avadanlıqlar (şəxsi-ictimai) | | 166,0 | |
| 19 | Mal-qara (iribuynuzlu) | 2023 baş | 1,0 | |
| 20 | Qoyun-keçi (davarlar) | 5583 baş | 1,8 | |
| 21 | Meyvə ağacları (şəxsi-ictimai) | 1077ha/99ha | 14,0 | |
| 22 | Tikinti müəssisələri | 11 ədəd | 37,0 | |
| 23 | Mühəndis infrastrukturları (kəndarası yollar, suvarma şəbəkələri, nasos qurğuları, kəhriz, qaz kəmərləri və s.) | | 72,0 | |
| **Cəmi dəymiş ziyan (mln. ABŞ dolları ilə)** | | | 1392,8 | |

**Qeyd:** Beynəlxalq və respublika əhəmiyyətli tikinti və qurğular nəzərə alınmayıb.

### Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilmiş fərman və sərəncamlar

1.Beynəlxalq Humanitar və Texniki Yardım üzrə Respublika Komissiyası haqqında sərəncam. № 144, 15.01.1995.

2.Beynəlxalq Humanitar və Texniki Yardım üzrə Respublika Komissiyasının Əsasnaməsinin təsdiq edilməsi haqqında sərəncam. № 164, 09.03.1995.

3.Xarici İnvestisiyaların və Texniki Yardım Proqramlarının Əlaqələndirilməsi və Layihələrinin hazırlanması üzrə Milli Agentliyin yaradılması haqqında fərman. № 405 24.11.1995.

4.Hərbi əməliyyatlar nəticəsində işğal olunmuş və bununla əlaqədar zərər çəkmiş Azərbaycan Respublikası ərazilərinin bərpası və yenidən qurulması üzrə Dövlət Komissiyası haqqında fərman. № 471, 12.07.1996.

5.Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının bəzi məsələləri haqqında sərəncam. № 58123.06.1997.

6.1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarında kütləvi surətdə deportasiyası haqqında fərman. № 656, 08.12.1997.

7.Qaçqınların və Məcburi Köçkünlərin Problemlərinin həlli üzrə Dövlət Proqramının hazırlanması haqqında sərəncam № 842,01.07.1998.

8."Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik və əlavələr edilməsi haqqında fərman. № 752, 19.08.1998.

9.Dövlət Proqramının təsdiq edilməsi haqqında sərəncam. № 895, 17.09.1998.

10.Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının bəzi məsələləri haqqında sərəncam. № 62 01.02.1999.

11.Azərbaycan Respublikası məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi haqqında sərəncam. № 81,17.02.1999.

12."Qaçqınların və Məcburi Köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə fərman. № 148, 08.07.1999.

13."Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə fərman. № 149, 08.07.1999.

14.Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun yaradılması haqqında fərman. № 215, 06.12.1999.

15.Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi haqqında sərəncam. № 279, 06.12.1999.

16.Məcburi köçkünlərə yemək xərci üçün verilən aylıq müavinətin artırılması haqqında sərəncam. № 543, 13.10.2000.

17.Məcburi köçkünlərin ərzaq təminatı haqqında sərəncam. № 791, 15.08.2001.

18.Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında fərman. № 562, 22.08.2001.

19.Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların
ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında fərman. № 577, 07.09.2001.

**Qeyd:** Qaçqınların və məcburi köçkünlərin problemləri ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisi 12 qanun, Nazirlər Kabineti isə bu günə kimi 62 qərar və sərəncam qəbul etmişdir.

**Cəbrayıl rayonu üzrə məcburi köçkünlərin dislokasiyası**

**1. Çadır düşərgələrində:**
ailə - 2741 nəfər - 14206

**2. Qurma evlərdən ibarət qəsəbələrdə:**
ailə - 739 nəfər - 3797

**3. İctimai binalarda:**
ailə - 1530 nəfər - 6580

**4. Yataqxanalarda:**
ailə - 2311 nəfər - 8783

**5.Təhsil müəssisələrində və uşaq bağçalarında:**
ailə - 1111 nəfər - 4805

**6.Sanatoriya, pansionat, istirahət evlərində, turbazalarda:**
ailə - 217 nəfər - 861

**7.Vaqonlarda:**
ailə - 240 nəfər- 1127

**8.Yol kənarlarında:**
ailə - 148 nəfər - 581

**9.Qohum, tanış evlərində:**
ailə - 2874 nəfər - 10233

**10.Zəbt olunmuş mənzillərdə:**
ailə - 487 nəfər - 2040

**11.Tikintisi yarımçıq qalmış binalarda:**
ailə - 319 nəfər - 1296

**12. Ferma və qazmalarda:**
ailə - 204 nəfər - 910

**13. "Dövlətqaçqınkom"un xətti ilə tikilən evlərdə:**
ailə - 21 nəfər - 83

**14. Beynəlxalq humanitar təşkilatların xətti ilə tikilmiş sadə daş evlərdə:**
ailə - 270 nəfər - 1138

**15. Beynəlxalq humanitar təşkilatların xətti ilə tikilmiş çiy kərpicdən olan evlərdə:**
ailə - 235 nəfər – 1007

**Cəbrayıllı məcburi köçkünlərin respublikanın şəhər və rayonları üzrə müvəqqəti məskunlaşmaları barədə məlumat**

| № | Şəhər və rayonların adı | ailə | nəfər |
|---|---|---|---|

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 1. | Yasamal | 357 | 1431 |
| 2. | Səbail | 317 | 1174 |
| 3. | Sabunçu | 677 | 2706 |
| 4. | Əzizbəyov | 250 | 1012 |
| 5. | Binəqədi | 599 | 2250 |
| 6. | Nizami | 415 | 1535 |
| 7. | Qaradağ | 346 | 1265 |
| 8. | Suraxanı | 489 | 1943 |
| 9. | Xətai | 461 | 1668 |
| 10. | Nərimanov | 310 | 1105 |
| 11. | Nəsimi | 231 | 957 |
| 12. | Sumqayıt | 1244 | 4545 |
| 13. | Abşeron | 303 | 1249 |
| 14. | Hacıqabul | 144 | 664 |
| 15. | Əli Bayramlı | 224 | 797 |
| 16. | İmişli | 1007 | 4467 |
| 17. | Beyləqan | 530 | 2075 |
| 18. | Sabirabad | 1217 | 6428 |
| 19. | Biləsuvar | 1675 | 9177 |
| 20. | Saatlı | 1443 | 5862 |
| 21. | Naxçıvan MR | 2 | 8 |
| 22. | Gəncə | 58 | 216 |
| 23. | Mingəçevir | 105 | 452 |
| 24. | Ağcabədi | 43 | .198 |
| 25. | Kürdəmir | 205 | 992 |
| 26. | Qobustan | 30 | 144 |
| 27. | Cəlilabad | 97 | 340 |
| 28. | Şamaxı | 46 | 160 |
| 29. | Şəki | 31 | 143 |
| 30. | Şəmkir | 21 | 124 |
| 31. | Balakən | 1 | 4 |
| 32. | Ağsu | 18 | 61 |
| 33. | Astara | 2 | 9 |
| 34. | Ağdaş | 18 | 51 |
| 35. | Bərdə | 14 | 42 |
| 36. | Qax | 9 | 42 |

| | | | |
|---|---|---|---|
| 37. | Qəbələ | 3 | 15 |
| 38. | Quba | 4 | 23 |
| 39. | Dəvəçi | 46 | 181 |
| 40. | Zaqatala | 7 | 28 |
| 41. | Zərdab | 23 | 93 |
| 42. | İsmayıllı | 75 | 344 |
| 43. | Yevlax | 16 | 64 |
| 44. | Goranboy | 1 | 4 |
| 45. | Göyçay | 2 | 11 |
| 46. | Lənkəran | 26 | 99 |
| 47. | Masallı | 38 | 132 |
| 48. | Neftçala | 30 | 145 |
| 49. | Oğuz | 1 | 5 |
| 50. | Salyan | 105 | 458 |
| 51. | Samux | 2 | 7 |
| 52. | Tərtər | 3 | 10 |
| 53. | Ucar | 16 | 58 |
| 54. | Siyəzən | 15 | 58 |
| 55. | Xızı | 7 | 32 |
| 56. | Tovuz | 3 | 12 |
| 57. | Xaçmaz | 14 | 49 |
| 58. | Füzuli | 71 | 328 |
| **Cəmi:** | | **13447** | **57447** |

## Cəbrayıl rayonu üzrə məcburi köçkünlərə ay ərzində dövlət büdcəsindən ayrılan vəsait barədə məlumat

**(mln.man.)**

1.Yemək xərci müavinəti (orta hesabla) -**1.400 mln. manat**

2.Pensiya və müavinət xərcləri (mln. manat/nəfər) - **1.304 mln. manat/14.500 nəfər**

o cümlədən:

- Cəbrayıl rayonu ƏƏSMM üzrə pensiya və müavinət paylanılır (pensiya 5409 nəfər, müavinət 2906 nəfər) - **554,0 mln. manat/7.315 nəfər**

3.Dövlət büdcəsindən maliyyələşən bütün təşkilatlar üzrə: (səhiyyə, təhsil, mədəniyyət, dövlət idarəetmə orqanları, sosial-təminat, kənd təsərrüfatı) - **661,0 mln. manat**

Bütün mənbələr üzrə cəmi: (rayon üzrə 1 ay ərzində) - **3.365 mln. manat**

o cümlədən, rayon xidməti üzrə - **2.615 mln. manat**

**Qeyd:** Büdcədən maliyyələşdirilən müəssisələrdə, təşkilatlarda çalışmış və özlərindən asılı olmayan səbəblərə görə işlə təmin olunmamış məcburi köçkünlərə verilən orta aylıq əmək haqqı ay ərzində təxminən 230,0 mln. manat təşkil edir.

**İşğaldan əvvəl Cəbrayıl rayonunda kənd təsərrüfatı məhsullarının istehsalı barədə məlumat (ictimai təsərrüfat üzrə)**

1.Üzüm istehsalı (son illərdə) - 61000 ton.
2.Dənli bitkilər (orta hesabla) - 12600 ton.
3.Tərəvəz - 557 ton.
4.Bostan məhsulları - 202 ton.
5.Meyvə və giləmeyvə - 32 ton.
6.Ət (diri çəki) - 1342 ton.
7.Süd – 6425 ton.
8.Yun - 108 ton.
9.Yumurta - 1796 min ədəd.
10.Barama - 239 ton.
11.İri buynuzlu mal-qara (ictimai sektor) - 11700 baş.
12.Qoyun və keçilər (ictimai sektor) - 59600 baş.
13.Üzüm bağları - 6993 ha.

**Cəbrayıllı məcburi köçkünlərin şəxsi təsərrüfatları barədə bəzi məlumatlar: (2001-ci ildə)**

1.Məcburi köçkünlərimizin şəxsi davarları (qoyun-keçilər) - 57980
2.İribuynuzlu mal-qara - 8010
3.Məcburi köçkünlərin özlərinin daxili imkanları hesabına əkin dövriyyəsinə daxil edilmişdir – 2000 ha
4.Məhsul istehsal olunmuşdur – 4460 tn.

o cümlədən:
buğda – 3900 tn.
arpa – 560 tn.

**İşğaldan əvvəl və işğaldan sonra əhalinin təbii artımı barədə məlumat**

| № | 1991-1992 | 1999-2000 |
|---|---|---|

| | Əhalinin sayı (orta hcsabla) | İllik doğuş (nəfərlə) | Artım və azalma (%-lə) | Əhalinin sayı (orta hesabla) | İllik doğuş (nəfərlə) | Artım (%-lə) |
|---|---|---|---|---|---|---|
| 1. | 50.050 | 1483 | 2.97 | 56.750 | 737 | 1,3 |
| 2. | 50.050 | 387 | 0,77 | 56.750 | 289 | 0,5 |

**İşğaldan əvvəl və işğaldan sonra əhalinin nigah bağlaması və boşanması ilə bağlı məlumat**

| № | İllər üzrə | Nigah bağlama (orta illik, nəfərlə) | Boşanma (orta illik, nəfərlə) | Boşanma faizi |
|---|---|---|---|---|
| 1. | 1991-1992 | 621 | 43 | 6,92 |
| 2. | 1999-2000 | 411 | 21 | 5,1 |



Akademik Əşrəf Hüseynov



Akademik Mehdi Mehdizadə



Şair Sərdar Əsəd

**Akademik Mehdi Mehdizadə mükafatı laureatları**

1.Mehdiyev Bahadur Hasanqulu oğlu - Cəbrayıl rayon Təhsil Şöbəsinin inspektoru.

2.Musayev Əziz Həsən oğlu - şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Sabirabad rayonundakı Qalaqayın çadır şəhərciyindəki köçkün orta məktəbinin direktoru.

**Cəbrayıl rayonunun yetişdirdiyi görkəmli elm və mədəniyyət xadimləri**

**Akademiklər:**

1.Mehdizadə Mehdi Məhəmməd - SSRİ Pedaqoji Elmlər Akademiyasının akademiki.

2.Hüseynov Əşrəf İskəndər - Azərbaycan SSR Elmlər Akademiyasının akademiki.

**Azərbaycan Respublikası Milli Elmlər Akademiyasmın müxbir üzvləri**

1.Hacıyev Tofiq İsmayıl oğlu - elmlər doktoru, professor.

2.Həsənov Arif Həsən oğlu - elmlər doktoru, professor.

3.Quliyev Novruz Məhəmməd oğlu - elmlər doktoru, professor.

**Azərbaycanın Xalq yazıçısı**

1. Əhmədov Sabir Məhəmməd oğlu

**Tanınmış yazıçı və şairlər**

1.Sərdar Əsəd - şair
2.Vaqif Bayatlı Önər - şair
3.İsmayıl İmanzadə - şair
4.Əziz Musa - şair
5.Yasif Nəsirli – yazıçı-publisist
6.Sabir Süleymanov – yazıçı-publisist
7.Sərdar Əliyev - yazıçı-publisist
8.Gülhüseyn Kazım - şair
9.Tahir Kazımov – yazıçı, polkovnik
10.Əli Rza Xələfli – şair, publisist
11.Fərzalı Abbasəlioğlu – şair
12.Şövkət Horovlu - şairə
13.Kəmalə Həsənzadə - şairə
14.Böyükkişi Heydərli - şair
15.Məhəmmədəli Mehdixan - şair
16.Mirzə Mirimli - şair
17.Tariyel Abbaslı - publisist
18.Əlisahib İsrafilzadə - yazıçı və onlarla digər gənc yazarlar yetişmişdir.

**Hal-hazırda fəaliyyət göstərən elmlər doktorları, professorlar**

| № | F.A.S. | Vəzifəsi |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. | Abbasov Fazil Eyvaz | tibb elmləri doktoru, professor. M.Topçubaşov adına klinikada şöbə müdiri. |
| 2. | Abdullayev Sərxan Əvəz | pedaqoji elmlər doktoru, professor. Xarici Dillər Universitetində dekan. |
| 3. | Verdizadə Nailə Allahverdi | kimya elmləri doktoru, professor. Azərbaycan Pedaqoji Universitetində kafedra müdiri. |
| 4. | Vəliyev Kamil Nəriman | filologiya elmləri doktoru, professor. |
| 5. | Vəliyev Oqtay Əliş | fizika-riyaziyyat elmləri doktoru, BDU, Türkiyə-İzmir Universitetinin professoru, iki dəfə bcynəlxalq "Soros" mükafatının qrantının sahibi. |
| 6. | Quliyev Çingiz Bayram | tibb elmləri doktoru, professor. Azərbaycan Tibb Universitetinin uşaq cərrahlığı kafedrasının müdiri, respublikanın baş uşaq cərrahı. |
| 7. | Quliyev Bəkir Bahadur | filologiya elmləri doktoru, professor. |
| 8. | Quliyev Hamlet Fərman | fizika-riyaziyyat elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru. |
| 9. | Qüdrətov Oruc Humay | elmlər doktoru, Azərbaycan Pedaqoji Universitetinin professoru. |
| 10. | Qüdrətov Dərgah Humay | elmlər doktoru, Azərbaycan Pedaqoji Universitetinin professoru. |
| 11. | Quliyev Hüseyn Məmmədhəsən | texnika elmləri doktoru, Texniki Universitetin professoru. |
| 12. | Əsgərov Aydın Musa | elmlər doktoru, professor. Bakı Dövlət Universiteti. |
| 13. | Kazımov Qəzənfər Şirin | filologiya elmləri doktoru, professor. |
| 14. | İsmayılov Nadir Vedam | tibb elmləri doktoru, professor. Tibb Universitetinin kafedra müdiri. |
| 15. | Məmmədov Havar Əmir | texnika elmləri doktoru, professor. Azərbaycan Texniki Universitetinin rektoru. |

| | | |
|---|---|---|
| 16. | Məmmədov Cəbrayıl Teymur | tibb elmləri doktoru, professor, Tibb Universitetinin daxili xəstəliklər kafedrasının müdiri. |
| 17. | Məmmədov İsmayıl Teymur | filologiya elmləri doktoru, professor. Azərbaycan Dövlət Universiteti. |
| 18. | Mehdiyev Rafiq İsrafil | texnika elmləri doktoru, Texniki Universitetin professoru. |
| 19. | Nəsirov Yasif Mirzə | filologiya elmləri doktoru, professor. |
| 20. | Süleymanov Cəfər Nuru | elmlər doktoru, Azərbaycan Pedaqoji Universitetinin professoru. |
| 21. | Süleymanov Əhliman Süleyman | kimya elmləri doktoru, Azərbaycan Dövlət Universitetinin professoru. |
| 22. | Xəlilov Vidadi Cəmil | pedaqoji elmlər doktoru, professor. |
| 23. | Hüseynov Hüseyn Məhərrəm | geologiya-mineorologiya elmləri doktoru, Neft Akademiyasının professoru. |
| 24. | Hüseynov Telman Alhüseyn | iqtidar elmləri doktoru, professor. Azərbaycan İqtisad Universitetinin I prorektoru. |
| 25. | Hüseynov Həsən Əhməd | texnika elmləri doktoru, Azərbaycan Texniki Universitetinin professoru, kafedra müdiri. |
| 26. | Hüseynov Eldar Yəhya | tibb elmləri doktoru, professor, uroloji xəstəxanada şöbə müdiri. |
| 27. | Hümbətov Ramiz Tonuş | texnika elmləri doktoru, professor, Neft Akademiyasının prorektoru. |
| 28. | Hüseynov Dilarə Əşrəf | elmlər doktoru, professor. |
| 29. | Şahverdiyev Aslan Nuşirəvan | texnika elmləri doktoru, Texniki Universitetin professoru, kafedra müdiri, Nyu-York Elmlər Akademiyasının üzvü, BMT-nin Azərbaycan üzrə koordinatoru. |
| 30. | Şahverdiyev Elman Məhəmməd | fizika-riyaziyyat elmləri doktoru, professor. |
| 31. | Hacıyev Əhməd Məhəmməd | biologiya elmləri doktoru, professor. |
| 32. | Qasımova Tamella Qardaş | texnika elmləri doktoru, Neft Akademiyasının professoru. |
| 33. | Hacıyeva Nailə Nəriman | filologiya elmləri doktoru, professor. |

**Qeyd:** Hal-hazırda respublikanın ali təhsil müəssisələrində və Elmi-Tədqiqat İnstitutlarında 100 nəfərdən yuxarı cəbrayıllı elmlər namizədi, dosentlər fəaliyyət göstərir.




Cəbrayıllı köçkünlər Bakıda



Saatlı rayonu, Çadır şəhərciyi



Biləsuvar çadır şəhərciyi



İmişli rayonu, Vaqonlarda



Mingəçevir şəhərində



Saatlı rayonu, Vaqonlarda



Çadır şəhərciyi

Toplu Cəbrayıl rayon İcra Hakimiyyətinin Başçısı
**Mahmud Quliyevin** təşəbbüsü ilə hazırlanmışdır
**"CƏBRAYIL YADDAŞLARDA..."**
**Bakı,** "ADILOĞLU" nəşriyyatı - 2001, 39 səh.

Yığılmağa verilmişdir: 09.11.2001,
çapa imzalanmışdır: 13.12.2001,
kağız formatı: 60x84 1/16, həcmi: 2,5 ç.v
sifariş: 220, sayı: 500
Qiyməti müqavilə ilə.

Toplu "ADILOĞLU" MMC-nin mətbəəsində
hazır diapozitivlərdən istitadə
olunmaqla ofset üsulu ilə çap olunmuşdur.
*Ünvan: Bakı şəh. S.Vurğun 34 (D.Əliyeva 211")*
Tel., 98-68-25